**UOT 82-09**

# HUMANİTAR ELMLƏRDƏ MİLLİ İDEAL PROBLEMİNİN ÖYRƏNİLMƏSİNƏ DAİR

**Vüsalə TAĞIZADƏ***

***Açar sözlər:****humanitar elmlər, ədəbiyyatşünaslıq, Azərbaycan ədəbiyyatı, milli ideal, tədqiqat, elmi axtarışlar.*

## Giriş

Azərbaycan ədəbiyyatında milli ideal məfkurəsinin təşəkkülü və formalaşması XIX əsrin II yarısı və XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövr xalqımızın inkişaf tarixində milli intibah epoxası kimi səciyyələnir. Sonrakı tarixi dövrdə də bu ideallar öz ömrünü davam etdirmişdir. Təəssüf ki, problemin öyrənilməsinə yalnız müstəqillik dövründə başlanılmışdır, sovet dönəmində deyilən problemin tədqiqi yasaq olunmuş mövzular sırasında idi.

Azərbaycan ədəbiyyatında milli ideal məfkurəsinin təşəkkülü və formalaşması XIX əsrin II yarısı və XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövr xalqımızın inkişaf tarixində milli intibah epoxası kimi səciyyələnir. Sonrakı tarixi dövrdə də bu ideallar öz ömrünü davam etdirmişdir. Təəssüf ki, problemin öyrənilməsinə yalnız müstəqillik dövründə başlanılmışdır, sovet dönəmində deyilən problemin tədqiqi yasaq olunmuş mövzular sırasında idi.

Təqdirəlayiq hadisədir ki, son onilliklərdə istər ədəbiyyatşünaslığımızda, istərsə də başqa humanitar elmlər sahəsində bu istiqamətdə səmərəli işlər görülmüşdür. Əlbəttə, bir məqalədə görülən işlərin hamısını əhatə etmək mümkün olmadığından onlardan bəzilərini elmi aspektdən işıqlandırmaq faydalı olardı.

## Milli idealın öyrənilməsində müasir milli tədqiqatlar

Yazıçı Anarın "Azərbaycançılıq haqqında düşüncələr" adlı kitabçası (1,14) da haqqında danışdığımız mövzu ilə bağlıdır. Kitabça sırf elmi tədqiqat əsəri deyil. Daha çox müəllifin azərbaycançılıq barədə yazıçı düşüncələrini, baxışlarını əks etdirir. Daha doğrusu yarı, elmi, yarı publisistik səciyyə daşıyan bir əsər təsiri bağışlayır. Müəllif milli ideal düşüncəmizin keçmişinə və indisinə ekskurs edir, qazanılmış təcrübədən çıxış edərək problemlə bağlı öz baxışlarını, mülahizələrini söyləyir.

Məmməd Əliyevin son illərdə ərsəyə gəlmiş "Bədii təfəkkürdə erkən azərbaycançılıq ideyası" adlı monoqrafiyasında(2,9) da əsas mövzu hədəfi azərbaycançılıq düşüncəsinin,
milli şüurun erkən qatlarını, qaynaqlarını ədəbiyyatşünaslıq baxımından araşdırıb üzə çıxarmaqdır. Əsərdə müəllifin əsas məqsədi erkən bədii təfəkkürdə və bədii təfəkkür məhsullarında milli düşüncənin izlərini, faktlarını axtarıb tapmaq, onların sonrakı xalq təfəkkürünə təsirini, milli dünyagörüşünə nüfuzunu aydınlaşdırmaqdır.

Alim problemi, əsasən, Azərbaycan folkloru və klassik ədəbiyyat nümunələri əsasında araşdırmaq missiyası güdür. Müəllif monoqrafiyada özünün elmi məqsəd və məramını, tədqiqat zamanı yerinə yetirdiyi vəzifəni bu cür müəyyənləşdirir: *"Kitabda erkən azərbaycançılıq düşüncəsinin genezisindən, onun mif, epos yaradıcılığından qaynaqlanan ilkin dərketmə, birgəyaşayış və idarəetmə funksiyası barədə məlumat verilir. Mifdə kosmoqonik , etnoqonik baxışlar sistemi, "Avesta"dan və Zərdüştilikdən irəli gələn xeyir fikir, xeyir söz, xeyir iş təliminin sonrakı dövrlərdə bədii təfəkkürdə, xüsusən epos yaradıcılığında formalaşmasından söhbət açılır..* M.Əliyev tədqiqat zamanı "Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" kimi bəzi qəhrəmanlıq dastanlarımızda da azərbaycançılıq ideallarının izləri olduğunu söyləyir və onları elmi təhlil müstəvisinə çıxarır.

*[*]Bakı Dövlət Universitetinin doktorantı, tural_90@mail.ru*

Son illərdə ədəbiyyatımızda milli ideal məfkurəsinin öyrənilməsi ilə bağlı meydana çıxan monoqrafik tədqiqatlardan biri də Ramiz Qasımovun "Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası" kitabıdır (7,69). Monoqrafiyada müəllif, əsasən, XIX-XX əsrlərin hüdudlarında yaşayıb yaratmış tənqidi realist sənətkarlarımızın ədəbi irsindəki milli ideal notlarını üzə çıxarmağa, həmin sənətkarların azərbaycançılıq məfkurəsinin o zamankı və sonrakı nəslə təsirini aydınlaşdırmağa təşəbbüs edir. Tənqidi realist əsərlərin ictimai mühitdə milli mənlik şüuruna sirayət sferasını, bu mənada onların ədəbi-estetik dəyərini izah etməyə çalışır.

Aysel Qurbanovanın "Romantizmdə milli ideal" sərlövhəli məqaləsi (8,3) də son illərin məhsuludur. Məqalə görkəmli filoloq alim Məmmədcəfər Cəfərovun "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası əsasında qələmə alınmışdır. Məqalədə qarşıya qoyulan əsas məram M.C.Cəfərovun Azərbaycan romantiklərinin yaradıcılığındakı milli ideal probleminə baxışını analiz etməkdir.Müəllif haqlı olaraq göstərir ki, sovet dövründəki yasaqlara baxmayaraq Məmmədcəfər müəllim romantiklərimizin irsində sənətin, sözün dili ilə ülvi şəkildə təbliğ və tərənnüm olunan milli idealları "vətənpərvərlik duyğusu və mövzusu" adı ilə şərh edib oxuculara əsl həqiqəti anlatmağa cəhd göstərmişdir.

Allahverdi Məmmədovun da Cəlil Məmmədquluzadənin və "molla nəsrəddinçi"lərin yaradıcılığında azərbaycançılıq ideyasının öyrənilməsi ilə bağlı tədqiqatları mövcuddur. Bunlardan "Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq" adlı monoqrafiyanı, "Molla Nəsrəddin" ədəbi məktəbində azərbaycançılıq ideyası" mövzusunda doktorluq dissertasiyasını, "Azərbaycançılıq "molla nəsrəddin"çilərin fərdi yaradıcılıq kontekstində: Məmməd Səid Ordubadi" məqaləsini göstərə bilərik (10; 11; 12). Təəssüf ki, A.Məmmədovun araşdırma və təhlilləri bir o qədər də səviyyəli, dolğun təsir bağışlamır. Müəllif məsələlərə nədənsə səthi, sönük yanaşmış, kifayət qədər təsvirçiliyə yol vermiş, çox zaman əvvəllər başqaları tərəfindən deyilən fikirləri təkrar etməklə kifayətlənmişdir.

Buraya qədər biz ədəbiyyatşünaslığımızda türkçülük, azərbaycançılıq, milli şüur və ideal məsələlərinə həsr olunmuş ümumi səciyyəli tədqiqatlardan, monoqrafiya və məqalələrdən söhbət açdıq. Bu cür ümumi səciyyəli elmi əsərlərdən əlavə konkret tarixi şəxsiyyətlərimizin, milli mütəfəkkirlərimizin, ədib və şairlərimizin irsində milli ideya və idealları araşdırma obyektinə çevirən tədqiqatlar da mövcuddur. Belə tədqiqatlarda hər hansı bir şəxsiyyətin yaradıcılığında haqqında danışdığımız problem və yaxud problemin müəyyən aspektləri, xətləri fərdi yaradıcılıq materialları əsasında araşdırma hədəfinə çevrilir.

Cəmaləddin Əfqani Cənubi Azərbaycanda doğulub 8 yaşına qədər burada yaşamış sonra Əfqanıstanda və müxtəlif məkanlarda ömür sürmüşdür. Yəni "Əfqani" nisbəsi ilə tanınmış bu münəvvər şəxsiyyət, böyük fikir adamı, əqidə, istiqlal və hürriyyət mücahidi əslən Azərbaycan türküdür. XIX əsrin II yarısında ömür sürmüş(1838-1897) bu mütəfəkkir şəxsiyyətin XIX əsrin II yarısı və XX əsrin əvvəllərində islam şərqində baş vermiş fikir intibahına, milli oyanışa, istiqlal, ictimai bərabərlik və hürriyyət idealının təzahürünə qüvvətli təsiri olmuşdur. "Milli vəhdət" fəlsəfəsinin təməlini qoyan da odur. Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühitinə, Azərbaycanda baş verən milli intibah prosesinə də C.Əfqaninin ideya və baxışları ciddi şəkildə təsir göstərmişdir. Təəssüf ki, o, Azərbaycanda az tanınmış, az öyrənilmiş, uzun illər əsərlərinin çapı qadağan edilmişdir. Bu istiqamətdə səmərəli addımların atılması yalnız müstəqillik dövründə mümkün olmuşdur. Şamil Qurbanovun "Cəmaləddin Əfqani və türk dünyası" adlı monoqrafiyası deyilən istiqamətdə atılan ilk fundamental addımdır(9,21). Kitabda C.Əfqaninin həyat və yaradıcılığı araşdırılır. Bu zaman onun türk dünyası ilə əlaqələrinə, türk aləmindəki, o cümlədən Azərbaycandakı fikir və mənəvi oyanışa təsiri diqqət mərkəzində saxlanılır. Bu mütəfəkkir insanın ideya və baxışlarının azərbaycançılıq məfkurəsinə, milli ideal düşüncəmizə, etnik yaddaşımızın bərpasına, həmçinin konkret olaraq Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad kimi ziyalılarımıza təsiri geniş şəkildə araşdırılır.

Ş.Qurbanovun monoqrafiyasında "*müsəlman şərqinin mümtaz siması*" kimi tanınan C.Əfqaninin elmə münasibəti, dini vəhdət və etiqad birliyi, azadlıq, bərabərlik və qardaşlıq haqqında görüşləri, məhəbbət və nifrət fəlsəfəsi, milli vəhdət fəlsəfəsi və milli birliyə aparan yol barədə mülahizə-

ləri, dil birliyi və onun həqiqi mahiyyəti ilə bağlı baxışları nəzərdən keçirilir. Azərbaycan oxucusuna ilk dəfə bu barədə dolğun məlumat verilir. Monoqrafiya bizdə milli intibah və azərbaycançılıq düşüncəsində C.Əfqaninin rolunu və mövqeyini üzə çıxarmaq mənasında qiymətli bir tədqiqatəsəri kimi dəyərləndirilə bilər.

Ş.Qurbanov mütəfəkkir şəxsiyyətin bir neçə məqalə və məktubunu da tərcümə edərək kitabın "Əlavələr" bölməsinə daxil etmişdir.

2007-ci ildə çap olunmuş "M.F.Axundovun ideal və sənət dünyası" monoqrafiyası Xalid Əlimirzəyevə məxsusdur. Bəllidir ki, M.F.Axundov ədəbiyyatşünaslığımızda barəsində çox danışılan, həyat, fəaliyyət və yaradıcılıq irsi müxtəlif istiqamətlərdən tədqiq olunan ədəbi simalarımızdan biridir. Lakin X.Əlimirzəyevin monoqrafiyası öz sələflərindən və müasirlərindən bir sıra cəhətləri ilə fərqlənir. Əvvələn, burada sənətkarın ədəbi, fəlsəfi və publisistik irsi ilə bağlı bir sıra maraqlı, orijinal mülahizələrə, mühakimələrə, təhlil və qənaətlərə rast gəlirik. İkincisi isə, sovet dövründəki alimlərdən fərqli olaraq Xalid müəllim M.F.Axundovun milli ideallarına xüsusi diqqət yetirir. Xalqın yaddaşında milli, xəlqi duyğuları, hissləri oyatmaq naminə gördüyü işlərə yeni təfəkkürlə baxır, yeni münasibət ortalığa qoyur.

XX yüzillikdə sovet dövrü istiqlal mübarizəsinin ən fədakar şairlərindən biri Xəlil Rza idi. Əlizadə Əsgərlinin "Milli ideal mücahidi" adlı monoqrafiyası (3, 10) da bu fədai şairin yaradıcılığında geniş şəkildə bədii inikasını tapan milli ideal, milli özünüdərk, milli istiqlal, milli səadət, milli əxlaq və s. problemlərin tədqiqinə və təhlilinə həsr olunmuşdur. Üç fəsildən ibarət monoqrafiyanın I fəslində X.R.Ulutürkün yaradıcılığında milli özünüdərkin mənbə və qaynaqlarından bəhs olunur. Şairin milli mənlik şüuru və məfkurəsi, milli idealda nədən və haradan qaynaqlandığı üzə çıxarılır. II Fəsildə isə sənətkarın poetik irsində milli azadlıq hərəkatının bədii təcəssümü nəzərdən keçirilir. Nəhayət, III fəsildə sənətkarın bədii tərcümələrində, publisistikasında, ədəbi-tənqidi əsərlərində, elmi-tarixi memuarlarında millilik və bəşərilik xüsusiyyətləri təhlil edilir.

**2. Müasir milli mətbuatda milli ideal məsələsi**

Mövzumuzla bağlı bir məsələni də xatırlatmaq yerinə düşər. Son onilliklərdə siyasi müstəqilliyimizin verdiyi imkanlara, həmçinin milli ideal və ideologiyamıza marağın artdığına görə türkçülük və azərbaycançılıq ideyalarının tədqiqi və təbliği sahəsində bir intensivlik, fəallıq müşahidə olunur. Bu intensivlik, fəallıq istər ədəbiyyatşünaslıqda, istərsə də digər humanitar elmlərdə – fəlsəfədə, sosiologiyada, politalogiyada, tarixdə və s. elm sahələrində özünü göstərir. Mətbuat səhifələrində də vaxtaşırı bu tipli yazılara rast gəlirik. Məsələn, 1993-cü ildə "Zaman" qəzetində C.Həsənovun "Azərbaycanda milliyyətçilik sağlam islam deməkdir" sərlövhəli silsilə yazıları işıq üzü görmüşdür (5,3). 2012-ci ildə isə "Səs" qəzetində "Azərbaycançılıq" rubrikasında Vahid Ömərovun deyilən mövzu ilə əlaqəli bir neçə elmi-publisistik məqaləsi dərc olunmuşdur ("Səs" qəz., 2012, 8, 13, 20 mart; 12 may və s.). Həmin məqalələr Azərbaycan maarifçilərinin, Azərbaycan Xalq Cümhuriyyəti ideoloqlarının yaradıcılığında azərbaycançılıq ideyalarının araşdırılmasına həsr olunmuşdur.

2013-cü ildə "Azad Azərbaycan" qəzetində "Azərbaycançılıq" adlı ayrıca rubrika açılmışdır. Yanvar ayından etibarən qəzetin müxtəlif nömrələrində (20, 27 yanvar; 3, 10, 17 fevral; 3, 17 mart; 17, 19, 21, 28 aprel; 5, 19, 26 may; 2, 9, 23, 30 iyun; 7, 21 iyul; 4, 7, 13, 14, 16, 23, 27, 28, 30 avqust; 1, 3, 4, 6, 8, 11, 15, 18 sentyabr və s.) problemin müxtəlif detalları, nüansları, xətləri ilə bağlı rəngarəng yazılar işıq üzü görmüşdür. Yazıların daha çox hissəsinin müəllifi Vahid Ömərovdur. Bir qisim məqalələr isə Bəxtiyar, Faiq Ələkbərov, Cavanşir, A.Məmmədli, A.Şirinov və s. kimi müəlliflərin qələminə məxsusdur. Daha çox elmi-publisistik səciyyəli bu yazılar həm tədqiqat, həm də təbliğat-təşviqat məqsədi daşıyır. Məqalələrin mövzu və ideyaca rəngarəngliyini anlamaq üçün onlardan bəzilərinin sərlövhələrinə nəzər salmaq kifayətdir: "Azərbaycançılıq milli birliyimizin əsasıdır"-Bəxtiyar; "Azərbaycançılıq və milli ideologiyanın mahiyyəti-Faiq Ələkbərov; Azərbaycançılıq amalı və müstəqil dövlətçilik ideyası"- İ.Mirişov; "Azərbaycançılıq və islam dini dəyərləri"-V.Ömərov; "Azərbaycançılıq ədəbi təlim kimi"-V.Ömərov; "Azərbaycançılıq və A.Bakıxanov"-

V.Ömərov; "Həsən bəy Zərdabi və Azərbaycançılıq"-V.Ömərov; "Azərbaycançılığın qaynaqları" - V.Ömərov; "Azərbaycançılıq ideologiyası və sosial ədalət prinsipi" - A.Şirinov və s.

M.Nərimanoğlunun "Azərbaycançılıq-milli ideologiyamızın əsası" sərlövhəli mətbu məqaləsi (15,2) də mətbuatımızda milli ideologiyamıza artan marağın təzahürüdür.

Xəqani Məmmədovun kitabı da (13,14) tarixi aspektdə yazılmış dərs vəsaitidir. Tələbələr üçün nəzərdə tutulmuş bu dərs vəsaitində XIX əsrin sonları-XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühitində xalqımızın milli istiqlalı, azadlığı və müstəqilliyi uğrunda aparılan mübarizədən, milli oyanış və inqilabi-siyasi proseslərdən danışılır. Azərbaycanın mütərəqqi fikirli ziyalılarının milli ideallar uğrunda mücadilələri, ideya və əməlləri şərh olunur.

Faiq Ələkbərovun "Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış" adlı monoqrafiyada əsərin adından da göründüyü kimi milli ideologiyamızın durumu tarixi-fəlsəfi yönümdə araşdırılır. Daha doğrusu, müəllif milli ideologiyamızın necə, hansı səbəbə, hansı tarixi şəraitdə təşəkkül tapdığına toxunur. Sonra onun tarixi inkişaf prosesinə qısaca nəzər salır. Nəhayət, onun bu günündən və sabahkı perspektivlərindən danışır. Humanitar elmlərimizdə Cənubi Azərbaycanda da milli şüurun oyanmasına, milli özünüdərk prosesinin mənzərəsini canlandırmağa, milli ideałların təzahür faktlarını öyrənməyə bir maraq vardır. V.Mustafayevin "Cənubi azərbaycanlıların milli şüuru haqqında bəzi qeydlər" adlı məqalə (14,9) belə bir marağın təzahürüdür.

**Nəticə**

Beləliklə, Azərbaycan ədəbiyyatşünaslığında milli ideal və ona münasibət probleminin öyrənilməsi filologiya elmimizin aktual məsələlərindən biridir. Təəssüf ki, uzun illər deyilən məsələ diqqətdən kənarda qalmışdır. Buna səbəb totalitar imperiya ideologiyasına söykənən siyasi hakimiyyətin məqsədli yasaqları olmuşdur. Sovet siyasi rejimi onun beynəlmiləlçi-müstəmləkəçi ideologiyasına müxalif olan bu cür tədqiqatlara imkan verməmişdir. İstər ədəbi-nəzəri fikrimizdə, istərsə də digər humanitar elmlərimizdə bu problemin həlli yolunda addımlar atılmasına yalnız XX yüzilliyin 80-ci illərinin sonlarından başlanılmışdır. Bu, artıq sovet rejiminin laxladığı, çürüdüyü və dağılmaq ərəfəsində olduğu, siyasi hakimiyyətin tamamilə yumşaldığı bir dövr idi. Belə bir yumşalma, nəhayət, SSRİ-nin süqutu ilə nəticələndi. Bu dövrdən etibarən filologiya elmimizdə milli məsələlərin, o cümlədən milli ideal, milli düşüncə, milli dövlətçilik məsələlərinin müxtəlif yönlərdən araşdırılmasına maraq artdı. Həm ədəbiyyatşünaslıq, həm də digər humanitar elmlər sahəsində fəaliyyət göstərən alimlərimiz deyilən istiqamətdə diqqətəlayiq addımlar atdılar, dəyərli fikirlər söylədilər. Milli ideologiyamızın əsas rüknünü təşkil edən türkçülüyün və azərbaycançılığın öyrənilməsi sahəsində faydalı işlər gördülər. Bu mənada ədəbiyyatşünas alimlərimizdən Yaşar Qarayevin, İsa Həbibbəylinin, Nizami Cəfərovun, Nizaməddin Şəmsizadənin, yazıçı Anarın, Sona Vəliyevanın, Məmməd Əliyevin, Şamil Vəliyevin, Əlizadə Əsgərlinin, Şamil Qurbanovun, Allahverdi Məmmədlinin, Aysel Qurbanova və b.-nın müəyyən əməyi vardır. Digər humanitar elmlərdə isə Həsən Həsənov, Xəqani Məmmdov, Faiq Ələkbərov, Vahid Ömərov və b. milli ideologiyamızın, milli məfkurə və düşüncəmizin mənşəyini, mahiyyətini, tarixini, dəyərini öyrənməkdə, təbliğ etməkdə əhəmiyyətli işlər görmüşlər.

## ƏDƏBİYYAT

1. Anar. Azərbaycançılıq haqqında düşüncələr. Bakı: Nurlan, 2003
2. Əliyev M. Bədii təfəkkürdə erkən azərbaycançılıq düşüncəsi. Bakı: Elm, 2018
3. Əsgərli Ə. Milli ideal mücahidi. Bakı: Elm, 2005
4. Əhmədova F. Nəriman Nərimanov-ideal və gerçəklik. Bakı: Elm, 1998
5. Həsənov C. Azərbaycanda milliyyətçilik sağlam islamçılıq deməkdir. "Zaman" qəz.. 1993, 6, 10, 13 şubat
6. Həsənov H. Nəriman Nərimanov-milli təmayüllü kommunist. Bakı: Pedaqogika, 2004
7. Qasımov R. Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası. Bakı: Elm və təhsil, 2017
8. Qurbanov A. Romantizmdə milli ideal// AMEA, Filologiya və sənətşünaslıq, 2019, №1, s. 87-92
9. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1997
10. Məmmədov A. Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq. Bakı: Elm, 2003
11. Məmmədov A. "Molla Nəsrəddin" ədəbi məktəbində azərbaycançılıq ideyasının bədii əksi problemləri. Fil. elm. dok. diss.-sı. Bakı, BDU, 2015
12. Məmmədli A. Azərbaycançılıq "molla nəsrəddin"çilərin fərdi yaradıcılıq kontekstində: Məmməd Səid Ordubadi. "525-ci qəzet", 2012, 12 may
13. Məmmədov X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri). Bakı: Elm, 2005
14. Mustafayev V. Cənubi azərbaycanlıların milli şüuru haqqında bəzi qeydlər/ Cənubi Azərbaycan tarixi məsələləri. Bakı: Elm, 1989
15. Nərimanoğlu M. Azərbaycançılıq-milli ideologiyamızın əsası. "Azərbaycan müəllimi" qəz., 2007, 2 noyabr
16. Sarıyeva İ. Y.V.Çəmənzəminli yaradıcılığında azərbaycançılıq motivləri. "Bakı xəbər" qəz., 2016, 23, 24 noyabr

## *РЕЗЮМЕ*

***Вюсаля Таги-заде***

***Об изучении проблемы национального идеала в области гуманитарных наук***

***Ключевые слова:*** *гуманитарные науки, литературоведение, азербайджанская литература, национальный идеал, исследование, научное исследование*

Проблема национального идеала является одним из вопросов, находящихся в центре внимания национальной гуманитарной науки в последние десятилетия. Основное внимание в статье уделяется росту интереса к данной проблеме в период независимости. В связи с этим опубликованы многочисленные монографии и статьи. Национальный идеал является главной идеологической основой нашей государственности. В статье также проанализирована степень изученности этой проблемы.

***SUMMARY***

***Vusala Taghizade***

***On the Study of National Ideal Problem in the Field of Humanities***

***Keywords:*** *humanities, literary criticism, Azerbaijani literature, national ideal, research, scientific research.*

The national ideal problem is one of the issues that have been the focus of attention of the humanities, in the last decade. The main attention in the article is paid to the growth of interest in this problem during the period of independence. In this regard, numerous monographs and articles have been published. The national ideal is the main ideological foundation of our statehood. The article also analyzes the level of study of this problem.